Konfransda nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsilin məzmununun yaradılması, yüksək nüfuzlu təhsilverənin və yeni idarəetmə sisteminin formalaşdırılması, ömürboyu təhsili təmin edən infrastruktun və yeni maliyyələşdirmə mexanizmlərinin yaradılması və digər məsələlər barədə Fəaliyyət Planında nəzərdə tutulmuş müddəaları izah ediblər.

Tədbirdə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində qarşıda duran vəzifələr bir daha diqqətə çatdırılıb, həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib.

Sonda Təhsil Nazirliyinin rəsmiləri jurnalistlərin çoxsaylı suallarını cavablandırıblar.